# 525-ci qəzet

31 iyul 2012-ci il,çərşənbə axşamı, №135 (3691). Qiymıəti 20 qəpik

www.525.az


## MTN daha bir əməliyyat keçirdi

### RABİTƏ VƏ İNFORMASİYA TEXNOLOGİYALARI NAZİRLİYİNƏ KÜLLİ MİQDARDA ZİYAN VURAN ÖZBƏKİSTAN VƏTƏNDAŞI HƏBS OLUNUB



Milli Təhlükəsizlik Nazirliyi (MTN) tərəfindən həyata keçirilmiş kompleks əməliyyat tədbirləri nəticəsində külli miqdarda narkotik vasitələrin qaçaqmalçılığının, eləcə də qanunvericiliklə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alınmadan və xüsusi razılıq olmadan qanunsuz sahibkarlıq fəaliyyəti göstərilməsinin qarşısı alınıb. MTN-in İctimai Əlaqələr Mərkəzindən APA-ya verilən məlumata görə, Azərbaycan Respublikasının vətəndaşları — Nəhmətov Amid Firudin oğlu, İmanverdiyev Ayaz Mahmud oğlu və hazırda şəxsiyyəti istintaqla araşdırılan Ərşad adlı İran İslam Respublikasının vətəndaşı qabaqcadan əlbir olaraq satış məqsədilə külli miqdarda narkotik vasitəni İran İslam Respublikasından gömrük sərhədindən gömrük nəzarətindən kənar keçirərək qaçaqmalçılıq yolu ilə Azərbaycan Respublikasına gətiriblər.

Müəyyən edilib ki, qrup üzvləri arasında əvvəlcədən əldə olunmuş razılığa əsasən Ərşad adlı iranlı narkotik vasitələri İran istiqamətindən qaçaq yolla Azərbaycanın Astara rayonunun Alaşa kəndi ərazisinə keçirmiş və orada gizlədib. Ayaz İmanverdiyev həmin narkotik vasitələri əvvəlcədən müəyyən edilmiş yerdən götürərək Astara rayonunun Şahağacı kəndində Amid Nəhmətova təhvil verib. MTN əməkdaşları tərəfindən Ayaz İmanverdiyev və Amid Nəhmətov yaxalanıb, sonuncunun yaşadığı evə keçirilmiş baxış zamanı 24 kiloqram 402,8 qram həşiş qətranı aşkar edilərək götürülüb.

*Ardı 3-cü səh.*

## Əsgər həlak oldu

Azərbaycan Ordusunda ölüm hadisəsi baş verib. APA-nın məlumatına görə, hadisə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində qeydə alınıb. Azərbaycan Ordusunun əsgəri, 1992-ci il təvəllüdlü Orxan Qəhrəman oğlu Abbasov hərbi hissədə aldığı güllə yarasından həlak olub. İlkin məlumata görə, əsgər yoldaşının silahla ehtiyatsız davranması nəticəsində açılan atəş Q. Abbasova dəyib. Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəis müavini, mayor Teymur Abdullayev APA-ya faktı təsdiqləyib. Məlumata görə, faktla bağlı araşdırma aparılır.

Qeyd edək ki, O. Abbasov Gədəbəy rayonundan hərbi xidmətə çağırılıb.

## Bakıda havanın hərarəti 28 dərəcəyə düşəcək

### YAXIN GÜNLƏRDƏ METEOHƏSSAS İNSANLAR ÜÇÜN ƏLVERİŞSİZ HAVA ŞƏRAİTİ PROQNOZLAŞDIRILIR



İyulun 31-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu, gün ərzində əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı ehtimalı var. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən APA-ya verilən xəbərə görə, arabir güclənən şimal-qərb küləyi gündüz mülayimləşəcək. Havanın temperaturu gecə 20-25, gündüz 28-33 dərəcə isti təşkil edəcək. Abşeronun çimərliklərində dəniz suyunun temperaturu Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulbada 24-25, Buzovna, Mərdəkan, Şüvəlanda 25-26, Türkan, Hövsan, Şıx, Sahildə 26-27 dərəcə isti olacaq.

Azərbaycanın rayonlarında iyulun 31-də əsasən gecə və axşam bəzi dağlıq yerlərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı gözlənilir. Qərb küləyi əsəcək, gecə və səhər arabir güclənəcək. Havanın temperaturu gecə 20-25, gündüz 30-35, dağlarda gecə 10-15, gündüz 20-25 dərəcə isti təşkil edəcək. Tibbi-meteoroloji proqnoza əsasən, iyulun 31-də mülayim xəzri küləyinin əsməsi meteohəssas insanlar üçün müsbət amil olsa da, avqustun 1-2-də zəif küləklərin üstünlüyü və arabir havada yaranan durğunluq fonunda isti diskomfort hava şəraiti əlverişsizdir.

## Prezident Heydər Əliyev Mərkəzində oldu

İyulun 30-da Azərbaycan Prezidenti İlham Əliyev Heydər Əliyev Mərkəzində olub. AzərTAc-ın verdiyi məlumata görə, baş vermiş yanğının nəticələrinin aradan qaldırılması ilə bağlı dövlət başçısına məlumat verilib. Vəziyyətlə yerindəcə tanış olan Prezident İlham Əliyev bərpa işləri ilə əlaqədar müvafiq tapşırıqlarını verib. Qeyd edək ki, iyulun 20-də Heydər Əliyev Mərkəzinin muzey hissəsinin tavanında aparılan qaynaq işləri nəticəsində yanğın baş verib.

## İranda həbsdə olan azərbaycanlı şairlərin məhkəməsinin vaxtı bəlli oldu

İranda həbsdə olan azərbaycanlı şairlər Fərid Hüseyn və Şəhriyar Hacızadə bu gün ailə üzvləri ilə görüşüblər. Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Elman Abdullayevin APA-ya verdiyi məlumata görə, bu barədə İran tərəfi Azərbaycanın Tədbrizdəki baş konsulluğunu məlumatlandırıb. Məlumata görə, görüşdə Azərbaycanın Təbrizdəki baş konsulluğunun nümayəndəsi də iştirak edib. Bundan iki gün əvvəl isə Təbrizdəki vitse-konsul Nəriman Orucəliyev şairlərlə görüşmüşdü.

Baş konsulluğa verilən məlumata görə, şairlərin məhkəməsi avqustun 7-nə təyin olunub. Şairlərin sözlərinə görə, onlar İrana icazəsiz gəlməkdə ittiham olunurlar.

Qeyd edək ki, bu il aprelin 29-da İrana getmiş şairlər Fərid Hüseyn və Şəhriyar Hacızadə mayın 2-də saxlanılıblar.

Onların həbsindən sonra Azərbaycan Xarici İşlər Nazirliyi İrana 5 nota verib.

## Bakının mərkəzi prospektində dəmiryolu ləğv edilib

Bakının mərkəzi prospektlərinin birində dəmiryolu ləğv edilib. Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin bölmə rəisi Vaqif Əsədov "Trend"ə bildirib ki, dünəndən Heydər Əliyev prospektində, "Şəfa" stadionunun yaxınlığındakı dəmiryolu xətti ləğv edilib. V.Əsədov deyib ki, dəmir yolu xəttinin ləğvi həmin prospektdə avtomobillərin hərəkət intensivliyini artıracaq. Dəmiryolu xəttinin ləğvi ilə əlaqədar olaraq həmin ərazidəki yol nişanları da götürülüb. Bölmə rəisinin sözlərinə görə, həmin ərazidə yaxın gələcəkdə yerüstü piyada keçidi inşa olunacaq.

## Milli Məclisin payız sessiyasının başlanma vaxtı məlum olub

Azərbaycan Milli Məclisinin (MM) payız sessiyasının başlanma vaxtı məlum olub. MM-dən APA-ya bildirilib ki, sessiya oktyabrın 1-də başlayacaq. Beləliklə, Milli Məclisin daxili Nizamnaməsinə əsasən, payız sessiyası sentyabrın 30-da başlanır və dekabrın 30-dək davam edir. Əgər sentyabrın 30-u istirahət gününə düşərsə, sessiya bu gündən sonra gələn birinci iş günü öz işinə başlayır. 2012-ci il sentyabrın 30-u bazar gününə təsadüf etdiyindən, payız sessiyası oktyabrın 1-də başlayacaq. Sessiya dekabrın 30-dək davam edəcək. MM-in komitə iclaslarının isə vaxtı dəqiqləşməsə də, bu iclasların bir qədər tez — sentyabr ayında başlayacağı gözlənilir.

Qeyd edək ki, iyulun 15-dən Milli Məclisin bütün deputatları məzuniyyətdədir. Məzuniyyət müddəti avqustun 30-dək davam edəcək.

## *Zəlimxan Yaqub:* "Mənə yeni böyrək köçürüləcək"

Sabiq deputat, Xalq şairi Zəlimxan Yaqub müayinə üçün getdiyi Almaniyadan qayıdıb. Bu barədə Modern.az-a şairin özü məlumat verib: "Yoxlamalar oldu, müalicələr gedir. Ağrılarım da azalıb. Çox şükür hər şey normaldır, həkimlərim də bunu təsdiq etdi".

Zəlimxan Yaqub bildirib ki, oktyabr ayının 8-də yenidən müalicə üçün Almaniyaya qayıdacaq. 2013-cü ilin sonlarına yaxın isə böyrək köçürülməsi planlaşdırılır. Qeyd edək ki, bu ilin əvvəlində tanınmış şairin hər iki böyrəyinin çıxarıldılıb və həkimlərin məsləhəti ilə dializ seansına başlanılıb.

## "Azərbaycan Qəbələ RLS-in icarə müddətinin 49 il uzadılmasına razılıq vermir"

### "NEZAVİSİMAYA QAZETA"NIN YAZDIĞINA GÖRƏ, AZƏRBAYCAN TƏRƏFİ İCARƏ MÜDDƏTİNİN 5-7 İL OLMASINI İSTƏYİR



"Azərbaycan Qəbələ Radiolokasiya Stansiyasının icarə müddətinin Moskvanın istədiyi kimi, 49 il müddətinə uzadılması ilə bağlı müqaviləni imzalamaqdan imtina edir". APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, bu barədə Rusiyanın nüfuzlu "Nezavisimaya qazeta" nəşri yazıb. Yazıda bildirilir ki, Azərbaycan tərəfi icarə müddətinin yalnız 5-7 il olmasına razılıq verə biləcəyini söyləyib. Lakin bu, Rusiya tərəfi üçün sərfəli deyil. Rusiya Müdafiə Nazirliyi Qəbələ RLS-in yerləşdiyi ərazinin həcminin azaldılması qərarına gəlib. Bundan başqa, nazirlik RLS-in hərbçi ştatının, Qəbələdə xidmət keçən rus hərbçilərinin həyat yoldaşlarının dərs dediyi və övladlarının təhsil aldığı Azərbaycan məktəbindəki rus bölməsinin ştatının ixtisara salınması haqqında qərar qəbul edib. Bu qərardan sonra hərbçilərin həyat yoldaşları Rusiya prezidenti Vladimir Putinə kollektiv və fərdi şəkildə müraciət edərək onların və ailələrinin sosial hüquqlarının qorunmasını xahiş ediblər.

## IV qrupda keçid balı aşağı salınmayıb



Ali məktəblərin III və I ixtisas qruplarından fərqli olaraq, IV ixtisas qrupu üzrə müsabiqədə iştirak etmək üçün minimal keçid balı aşağı salınmayıb. Bunu APA-ya açıqlamasında Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının (TQDK) mətbuat xidmətinin rəhbəri Elnur Nağızadə deyib. O bildirib ki görə, IV ixtisas qrupu üzrə ixtisas seçimində ümumi balı 250-dən, hər bir imtahan fənni üzrə ayrılıqda topladığı nisbi balı 10-dan az olmayan abituriyentlər iştirak edə bilərlər. Ümumi balı 350 və daha çox olan abituriyentlərin ixtisas seçiminə buraxılmaları üçün onların fənlər üzrə cavablarına nisbi bal məhdudiyyəti tətbiq olunmur. Dövlət sifarişi əsasında ayrılmış yerlərin ixtisas seçimində ümumi balı 350-dən və hər bir imtahan fənni üzrə ayrılıqda topladığı nisbi balı 10-dan az olmayan abituriyentlər iştirak edə bilərlər.

Aqrar ixtisaslar üzrə ixtisas seçiminə ümumi balı 150-dən az olmayan abituriyentlər buraxılacaqlar.


## ELAN

Dünyaşöhrətli professor, doktor **Cavad Heyət** Bakıda.
Hər gün saat 10.00-dan 13.00-a qədər xəstələrini qəbul edir.
**Ünvan: Nizami küçəsi 149, 2-ci blok, 2-ci mərtəbə, mənzil 27 (həyət qapısından girmək lazımdır).**
**Telefon: (012) 493-98-74, (050) 395-18-54**



Muxtar İMANOV

filologiya üzrə elmlər doktoru



# "Azərbaycan folkloru külliyyatı"ndakı bir mətnlə bağlı narahatlığa münasibət

Folklor İnstitutunun direktoru Folklor İnstitutunun tərtib etdiyi "Azərbaycan folkloru külliyyatı"nın 6-cı cildində (Bakı, Nurlan Nəşriyyatı, 2007) "Arzuolunmaz kürəkən" adlı bir nağıl da çap olunmuşdur. Folklor İnstitutunun fəaliyyəti ilə bağlı son günlər yaranmış narahatlığın əsas səbəbi adıçəkilən nağılda vulqar ifadələrin olması və həmin ifadələrin nəşr zamanı eynilə saxlanılmasıdır.

Qeyd etməyi lazım bilirik ki, folklor mətnini olduğu kimi yazıya almaq, mətnin dil və üslub xüsusiyyətlərini qoruyub saxlamaq folklorşünaslıqda mühüm prinsiplərdən biri hesab edilir. Bu prinsip milli folklorşünaslığımızda ilk mərhələlərdən etibarən ciddi şəkildə gözlənilmişdir. M.Qəmərlinin 1899-cu ildə çap olunan "Atalar sözü" kitabında, həmçinin XX əsrin 20-30-cu illərinə aid bir çox folklor nəşrlərində (məsələn, V.Xuluflunun "Tapmacalar", H.Zeynallının "Azərbaycan atalar sözü" və "Tapmacalar", C.Hacıbəylinin "Qarabağ folkloru" kitablarında) mətnin olduğu kimi təqdim edilməsi, hətta bəzi vulqar ifadələrin eynilə saxlanılması zəruri sayılmışdır.

Dünya folklorşünaslığı və milli folklorşünaslıq təcrübəsinə söykənən, xalq ədəbiyyatını necə var, o şəkildə toplamaq şərtini xüsusi nəzərə alan Folklor İnstitutu bugünkü ictimai-mədəni meyarlar çərçivəsində folklor nümunələrini çap edərkən vulqar ifadəli mətnlərə yer verməməyə çalışır və bu cür mətnləri arxivdə hifz etməklə kifayətlənir. İndiyədək 25 cildi çap olunmuş "Azərbaycan folkloru külliyyatı"nın yalnız bir cildində və həmin cildin yalnız bir mətnində vulqar ifadələrin yer alması isə səhlənkarlıq ucbatından — arxiv materialını başdansovdu oxuyub kitaba daxil etmək səbəbindən baş vermişdir.

"Arzuolunmaz kürəkən" nağılının arzuolunmaz şəkildə çap edildiyi kitab Folklor İnstitutunda müzakirə edilmiş, ictimaiyyətin narahatlığına səbəb olan nəşr faktının gələcəkdə təkrarlanmaması üçün müəyyən tədbirlər görülmüşdür. "Azərbaycan folkloru külliyyatı" Redaksiya Heyətinin tərkibində əsaslı dəyişiklik edilmiş, vulqar ifadəli mətnin çap edildiyi, eləcə də bəzi digər mətnlərin paspotlaşmasının düzgün aparılmadığı, bir sıra orfoqrafik xətalara yol verildiyi 6-cı cildin nəşrinə bilavasitə məsul olan üç əməkdaşa İnstitut rəhbərliyi tərəfindən xəbərdarlıq elan edilmişdir. Xatırladırıq ki, cildin nəşrinə cavabdeh olan şəxslərdən biri ictimaiyyət arasında yaranmış məlum narazılıqdan xeyli qabaq — 2011-ci ilin oktyabr ayında AMEA rəhbərliyinin qərarı ilə direktor vəzifəsindən azad edilmişdir.

Xalq ədəbiyyatı nümunələrinin çap olunmasında yol verilmiş hər hansı nöqsanı xeyirxahlıq niyyəti ilə diqqətə çatdıran ictimaiyyət nümayəndələrinin hər birinə təşəkkür edirik. Bununla yanaşı, onu da bildirmək istəyirik ki, Folklor İnstitutunun elmi fəaliyyəti üçün səciyyəvi olmayan bir faktın mətbuatda və ictimai şəbəkələrdə biləreкdən bu qədər şişirdilməsi acınacaqlı hal, təhlükəli meyldir.

**23 iyul 2012-ci il**

# ARDNŞ-də ABŞ-ın Missisipi ştatının senatorları ilə görüş keçirilib

ARDNŞ rəhbərliyi ilə Bakıda səfərdə olan ABŞ-ın Missisipi ştatının qanunverici orqanlarının üzvlərindən ibarət nümayəndə heyəti arasında görüş keçirilib. Şirkətdən verilən məlumata görə, ARDNŞ-nin birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadə son illər sürətli inkişaf tempi ilə dünyanın diqqətini cəlb edən Azərbaycanın iqtisadi yüksəlişindən və bu yüksəlişdə ölkənin neft-qaz sənayesinin rolundan danışıb. O, qeyd edib ki, Azərbaycan iqtisadiyyatının flaqmanı olan Dövlət Neft Şirkətini Amerikanın nüfuzlu neft-qaz şirkətləri ilə çoxillik səmərəli əməkdaşlıq əlaqələri bağlayır. X.Yusifzadə Azərbaycanda neftçıxarma işinin zəngin tarixə malik olduğunu, Bakı neftçilərinin dünya neft sənayesinə çoxsaylı töhfələr verdiklərini söyləyib.



Daha sonra ARDNŞ-nin son illər ölkə daxilində və xaricdə həyata keçirdiyi investisiya layihələri haqqında ətraflı danışan X.Yusifzadə Azərbaycanın zəngin karbohidrogen ehtiyatlarına malik olduğunu, təbii qazın ixracı məsələlərində iqtisadi səmərəliliyin əsas götürüldüyünü qeyd edib, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş və hazırda Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilən neft strategiyası çərçivəsində regional əhəmiyyətli layihələrin gerçəkləşdirilməsi, Azərbaycanda hasil olunan karbohidrogenlərin dünya bazarlarına çıxarılması məqsədi ilə qısa müddətdə şaxələndirilmiş neft və qaz kəmərlər sisteminin yaradılması barədə geniş məlumat verib.

Azərbaycana dəvət olunduqları və yüksək səviyyədə keçirilən görüş üçün ARDNŞ rəhbərliyinə təşəkkürünü bildirən Missisipi ştat senatoru Hillman Freyzer Azərbaycan ilə Amerika arasındakı dostluq və strateji münasibətlərdən danışıb, bu münasibətlərin son dövrdə daha da inkişaf etdiyini vurğulayıb. Xalqlarımızın bir-birini daha yaxından tanımaları üçün belə səfərlərin əhəmiyyətini vurğulayan H.Freyzer Missisipi ştatının qanunverici orqanlarının üzvlərindən ibarət nümayəndə heyətini ARDNŞ rəhbərliyinə təqdim edib və bildirib ki, bu ştatla Azərbaycan arasında münasibətlər daha sıx və genişdir. Ştatın coğrafi, iqtisadi, sosial və mədəni göstəriciləri haqqında ətraflı məlumat verən qonaq ARDNŞ rəhbərliyini Missisipiyə dəvət edib.

Görüşdə nümayəndə heyətinin üzvlərini maraqlandıran suallar cavablandırılıb, Missisipi ştatının konqresmen və senatorlarının bir sıra mühüm görüşlər keçirəcəkləri qeyd olunub.

**BƏXTİYAR**

# "Azərsu" tərəfindən sudan qeyri-qanuni istifadə faktı aşkarlanıb

"Azərsu" Açıq Səhmdar Cəmiyyəti (ASC) içməli suyun dəqiq uçotunun aparılması və sudan qeyri-qanuni istifadə hallarının aradan qaldırılması istiqamətində nəzarət tədbirlərini davam etdirir. ASC-nin mətbuat xidməti və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, bu sahədə nəzarət tədbirləri gücləndirilsə də, hələ də bəzi abunəçilər içməli sudan sayğacdankənar və müqavilə bağlamadan istifadə edirlər.



"Su təchizatı və tullantı suları haqqında" Qanunun tələbləri əsas götürülərək belə halların aşkarlanması və aradan qaldırılması məqsədi ilə "Baki Sukanal" idarəsinin Xətai Sukanal departamenti əməkdaşlarının keçirdiyi nəzarət tədbirləri nəticəsində Bakı şəhəri Xətai rayonu Mingəçevir küçəsi 40 ünvanında yerləşən "Avto-qarant" Açıq Səhmdar Cəmiyyətində içməli sudan qeyri-qanuni istifadə faktı aşkarlanıb. Səhmdar Cəmiyyətin yerləşdiyi ərazidə icarə əsasında fəaliyyət göstərən xalçayuma, daş kəsimi, mebel və şüşə sexlərində içməli sudan qeyri-qanuni istifadə edilib. Su təchizatı sisteminə baxış keçirilərkən məlum olub ki, həmin obyektlərə içməli suyun verilməsi 25 mm diametrli borularla nəzərdə tutulsa da, qeyri-qanuni çəkilmiş 25 mm diametrli xətdən istifadə edilib.

Araşdırma zamanı məlum olub ki, obyekt ərazisindəki 2 subartezian quyusundan çıxarılan sular istifadə olunduqdan sonra kanalizasiya şəbəkəsinə axıdılıb və kanalizasiya xidmətlərindən qeyri-qanuni istifadə edilib.

Aşkarlanan faktlar obyekt rəhbərliyinin iştirakı ilə aktlaşdırılıb və obyektin su təchizatı dayandırılıb. Sudan qeyri-qanuni istifadə edilməsinə görə "Azərsu" ASC-yə dəymiş zərər qiymətləndiriləcək və abunəçi — "Avto-qarant" ASC cərimə olunacaq.

"Azərsu"" ASC bir daha abunəçilərin diqqətinə çatdırır ki, içməli sudan qeyri-qanuni istifadə yolverilməzdir. Belə halların aşkarlanması üçün nəzarət tədbirləri mütəmadi davam etdiriləcək və qanunsuz hərəkətlərə yol verən abunəçilər içməli su təchizatı qeyd-şərtsiz dayandırılacaq və onlara qarşı cərimə tətbiq ediləcək.

**BƏXTİYAR**

# Neftçilər prospekti daha 2 ay bağlı olacaq

Azərbaycan paytaxtının əsas nəqliyyat xətlərindən biri olan Neftçilər prospektində aparılan təmir-tikinti işləri bundan sonra ən az 2 ay davam edəcək. "APA-Economics"in xəbərinə görə, iyulun 14-dən prospektin mərkəzi hissəsində — "Azneft" dairəsi ilə Azadlıq meydanınadək Neftçilər prospekti boyu təmir-tikinti işlərinə və yeni asfalt örtüyünün çəkilməsinə başlanıb. Bununla əlaqədar Neftçilər prospektində nəqliyyatın hərəkətinə qeyri-müəyyən vaxtadək məhdudiyyət qoyulub və prospektə çıxışı olan bütün yollar bağlanıb.



Təmir işləri ilə yanaşı, prospekt boyunca kommunikasiya, rabitə, su və kanalizasiya xətləri də dəyişdirilir, yeni xətlər çəkilir və mövcud xətlərin yerləri dəyişdirilir. Artıq bəzi qurumlar işlərin yaxın günlərdə başa çatacağını bildirirlər. "Azəriqaz" İstehsalat Birliyindən "APA-Economics"ə verilən məlumata görə, artıq prospektin Azneft meydanından Dəniz Vağzalınadək hissəsində qaz xətlərinin dəyişdirilməsi başa çatıb. Dəniz Vağzalından Yusif Səfərov küçəsinə qədər olan hissədə isə işlər avqustun 3-dək başa çatacaq.

Prospekt boyunca su və kanalizasiya xətlərinin çəkilməsi və yenilənməsi də avqustun ilk ongünlüyü ərzində başa çatmalıdır. "Azərsu" ASC-dən bildiriblər ki, Neftçilər prospektinin Funikulyorun qarşısından Əziz Əliyev küçəsi ilə kəsişməsinə qədər olan hissəsində uzun müddət istifadədə olan metal borulardan ibarət su və kanalizasiya xətləri polietilen borularla əvəzlənib. Hazırda prospekt boyunca 1960 metr uzunluğunda su, 250 metr uzunluğunda kanalizasiya xətti çəkilir. Prospektin Puşkin küçəsi ilə kəsişməsindən Yusif Səfərov küçəsinə qədər olan hissəsində isə yeni magistral su xətti çəkilir. 1286 metr uzunluğunda müxtəlif diametrli polietilen borularla çəkilən su xətti bu ərazidə yeni tikilmiş yaşayış binalarının içməli su təminatını yaxşılaşdıracaq.

Bakı Telefon Rabitə İstehsalat Birliyinin (BTRİB) baş direktor müavini Xankişi Kişiyev "APA-Economics"ə bildirib ki, prospekt boyunca rabitə xətlərinin yenilənməsi və yerlərinin dəyişdirilməsi işləri isə artıq başa çatıb.

Kommunikasiya və rabitə xətlərinin dəyişdirilməsindən sonra yolda təmir-tikinti və asfalt örtüyünün dəyişdirilməsi işləri aktivləşəcək. Bu işləri həyata keçirən "Azəryolservis" ASC-dən verilən məlumata görə, digər işlər başa çatandan sonra təmir-tikinti və yol örtüyünün dəyişdirilməsinin azı 2 ay davam edəcəyi gözlənilir.

Qeyd edək ki, hazırda Bakının bir sıra digər yollarında da təmir-tikinti işləri davam edir. Bura Zabrat yolu, Dərnəgül yolu və s. aiddir. "Azəryolservis" ASC-nin məlumatına görə, şəhər şosesinin Sabunçu qovşağından Zabrat dairəsinə qədər olan hissəsində işlər avqustun sonunda — sentyabrın 1-ci on günlüyündə başa çatmalıdır. Dərnəgül yolunda işlərin nə vaxt qurtaracağını isə dəqiq söyləmək mümkün deyil. ASC-dən bildirilib ki, bu yoldakı nəqliyyat qovşaqlarında işlər 2013-cü ildə başa çatacaq.

# "Yeni Üfüq" Qocalar evini ziyarət edib

"Yeni Üfüq" Mənəvi İrsin Təbliği İctimai Birliyi Ramazan ayı ilə əlaqədar silsilə tədbirlərə start verib. Beləki bu günlərdə birliyin nümayəndələri Bakının Bilgəh qəsəbəsində yerləşən Müharibə və Əmək Əlilləri üçün Pansionatı (Qocalar evi) ziyarət edib. "Yeni Üfüq" Mənəvi İrsin Təbliği İctimai Birliyinin sədri Sevinc Əzimbəyli bildirib ki, rəhbərlik etdiyi təşkilat mütəmadi olaraq xeyriyyə işləri həyata keçirir. Onun sözlərinə görə, Ramazan ayı ilə əlaqədar Bilgəh qəsəbəsindəki Qocalar evinin sakinləri ilə görüşmək görülən işlərin davamıdır: "Azərbaycanın adət-ənənəsində, eləcə də İslam dinində böyüklərə hörmət etmək, onlara qayğı ilə yanaşmaq xüsusi qeyd olunub. Bu gün də Qocalar evində olmağımızın əsas məqsədi odur ki, milli adətlərimizdən və dinimizdən irəli gələrək qarşımıza qoyulan vəzifəmizi yerinə yetirək. Çünki buradakı ata və analarımızın övlad sevgisinə, diqqət və qayğıya ehtiyacı var. Hər kəsə bəllidir ki, dövlət qurumları tərəfindən belə müəssisələr diqqət mərkəzindədir və onların ehtiyacları ödənilir. Sadəcə, buradakı insanlara mənəvi qayğı və dəstək göstərmək lazımdır".

S.Əzimbəyli bildirib ki, rəhbərlik etdiyi təşkilat üzvləri öz övladları ilə birlikdə tədbirdə iştirak edib. Onun sözlərinə görə, bu tədbirlər əllilərin, uşaqların və xüsusi qayğıya ehtiyacı olan insanların məskunlaşdığı mərkəzlərdə davamlı olaraq keçiriləcək.

**BƏXTİYAR**

# 12 898 əcnəbi DSMF tərəfindən qeydiyyata alınıb

Bu ilin 6 ayı ərzində Dövlət Sosial Müdafiə Fondunun (DSMF) fərdi uçot sistemində qeydiyyata alınan əcnəbilərin sayı 5,23 faiz artaraq 12 898 nəfərə catıb. DSMF-nin ictimaiyyətlə əlaqələr sektorundan verilən məlumata görə, iyulun 1- ə olan statistikaya əsasən, ümumilikdə 95 ölkənin vətəndaşlarını əhatə edən əcnəbilər arasında əvvəlki hesabat dövrlərində olduğu kimi Türkiyə vətəndaşları (7497 nəfər) çoxluq təşkil edir. Fərdi uçot sistemində qeydiyyata alınan əcnəbilərin sayına görə ikinci yerdə qərarlaşan Gürcüstan vətəndaşlarının sayı 1527 nəfərə çatıb. Üçüncü yerdə gələn Rusiya Federasiyasının vətəndaşlarının sayı isə hazırda 672 nəfərdir. Sonrakı yerlərdə İran İslam Respublikası (423), Hindistan (289), Çin Xalq Respublikası (257), Böyük Britaniya və Şimali İrlandiya Krallığı (165), Özbəkistan (161), Bosniya və Hersoqovina (128), Pakistan İslam Respublikası (114), Almaniya (111) , Ukrayna (107), Filippin (106), İtaliya (91), Türkmənistan (86), Malayziya (80), Qazaxıstan (76), ABŞ (70) və s. ölkələr gəlir.

2006-cı ilin yanvarın 1-dən Azərbaycan Respublikası mənbələrindən əmək ödənişi və məcburi dövlət sosial sığorta haqqına cəlb olunan digər gəlirləri əldə edən əcnəbilərin məcburi dövlət sosial sığortası ilə əhatə olunması prosesinə başlanılıb. Hazırda dövlət sosial sığorta sistemində fərdi uçotun daha da inkişafı üçün həyata keçirilən tədbirlərin istiqamətlərindən biri kimi Azərbaycan Respublikası mənbələrindən əmək ödənişi və məcburi dövlət sosial sığortasına cəlb olunan digər gəlirləri əldə edən əcnəbilərin məcburi dövlət sosial sığortası ilə əhatə olunması davam etdirilməkdədir.

**BƏXTİYAR**

# "Tarixin yaddaşı: Şamaxı" filmi təqdim edilib

Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası (AVCİYA) ilə Avrasiya Beynəlxalq Araşdırmalar İnstitutu İctimai Birliyinin dəstəyi ilə ərsəyə gəlmiş "Tarixin yaddaşı: Şamaxı" filmi təqdim edilib. Filmin təqdimatı dünən Şamaxı şəhərində, mədəniyyət sarayında baş tutub.

1918-ci il Şamaxı soyqırımına həsr edilmiş filmin təqdimat mərasimində Şamaxının millət vəkili, AVCİYA-nın prezidenti Elxan Süleymanov, millət vəkilləri Qənirə Paşayeva, Fazil Mustafa, Qüdrət Həsənquliyev və rayon icra hakimiyyəti başçısının müavini Qasım Qasımov filmin əhəmiyyətindən, bədnam qonşuları tərəfindən Azərbaycan xalqına qarşı törədilmiş vəhşiliklərin tarixinin öyrənilməsinin vacibliyindən danışıblar.

Tədbir filmin nümayişi ilə başa çatıb.

**BƏXTİYAR**

# Peşə təhsili müəssisələrinə qəbulla bağlı elektron versiya hazırlanır

"Elektron hökumət" çərçivəsində Təhsil Nazirliyi bir sıra yeniliklər edəcək. Təhsil naziri Misir Mərdanovun sözlərinə görə, ilk növbədə xaricdə təhsil alan ölkə vətəndaşlarının diplomlarının tanınması və nostrifikasiyasının elektron versiyası hazırlanacaq. Təhsil naziri bildirib ki, bundan əlavə, peşə təhsili müəssisələrinə qəbulla bağlı da elektron versiya hazırlanır. M.Mərdanov əlavə edib ki, gələn tədris ilində əsas yenilik orta məktəblərin V siniflərində yeni milli kurikulumların tətbiqinə başlanılması olacaq. Hazırda Bakıda və regionlarında bununla bağlı hazırlıq işləri aparılır: Bunun özünün çox çətinlikləri olacaq. V siniflərdə dərs deyəcək 40 minə yaxın müəllimləri müasir kurikulumlar əsasında təlimləndirmişik və şagirdlər tamamilə yeni biliyə yiyələnən müəllimlər görəcəklər.

Dillərin tədrisi ilə bağlı məsələyə gəlincə, təhsil naziri vurğulayıb ki, bu vaxta kimi ölkənin ümumtəhsil müəssisələrində ingilis, rus, fransız, alman dili tədris olunur: "Yeni tədris ilindən Azərbaycanın orta məktəblərində yapon və italyan dillərinin tədrisinə geniş yer veriləcək. Nazirlik bir neçə məktəbdə italyan dilinin ikinci xarici dil kimi tədris olunmasına çalışacaq. Bir neçə məktəbdə də ingilis və rus dilinin intensiv tədrisinin təşkil proqramını genişləndirəcəyik. Sentyabrın 15-dən sonra bu iş geniş olacaq".

**S.QARAYEVA**

# Şagirdlər üçün ziyanlı sayılan 18 milyon vebsayta giriş məhdudlaşdırılıb

Ümumtəhsil məktəbləri üçün zərərli hesab edilən 90 tematik qrup üzrə dünyanın 18 milyon veb-saytına giriş məhdudlaşdırılıb. Təhsil Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, bu proses Azərbaycan Təhsil Şəbəkəsində istifadə edilən "Vebsens" proqramının internet filtrasiya sistemi vasitəsilə həyata keçirilib. Məhdudlaşdırılan saytlar əsasən uşaqların psixikasına mənfi təsir göstərə biləcək veb-resurslar, pornoqrafiya, aqressiv davranış, ekstremizm, narkotik və alkoqollu içkiləri təbliğ edən və ümumiyyətlə yetişən nəsil üçün etik və mənəvi qaydalara uyğun olmayan saytlardır. Bununla yanaşı, texniki nöqteyi-nəzərdən kompyuterlər üçün virus "hücumu" təhlükəsi olan veb-rerurslara da çıxışın qarşısı alınıb.

Qeyd edək ki, "Vebsens" dünyanın məzmun üzrə aparıcı informasiya təhlükəsizliyi proqramlarındandır. Proqramda onlayn rejimdə "WebCatcher" servisi vasitəsilə zərərli hesab edilən mövzular üzrə saytlar indeksasiya edilir və avtomatik olaraq məhdudlaşdırılmış informasiya resursları qrupuna salınır. Nazirliyin məlumatında bildirilib ki, mütəxəssislər vasitəsilə də mütəmadi olaraq qlobal şəbəkədə internet-resurslarının analizi aparılır. Azərbaycanda zərərli veb-rerurslar üzrə tematik qrupların müəyyən olunması "Təhsil müəssisələrində internetdən istifadənin təşkili və məzmunun süzgəclənməsi şurası" tərəfindən həyata keçirilir.

**S.QARAYEVA**

# Dövlət Sərhəd Xidməti Akademiyasına qəbulla bağlı müsabiqə keçirilir

Dövlət Sərhəd Xidmətinin Akademiyasına qəbul olmaq istəyən abituriyentlər üçün müsabiqə keçirilir. Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının (TQDK) mətbuat xidmətindən verilən məlumata görə, Dövlət Sərhəd Xidmətinin rəsmi müraciətinə əsasən, 2012-2013-cü tədris ili üçün I ixtisas qrupu üzrə qəbul imtahanlarında 150 və daha yüksək bal toplamış abituriyentlərin Dövlət Sərhəd Xidmətinin Akademiyasının boş (vakant) yerlərinə qəbul olunması üçün müsabiqə keçirir. Müsabiqə uçuş mühəndisliyi, gəmiçilik və gəmilərin hərəkətinin idarə edilməsi, mexanika mühəndisliyi ixtisaslar üzrə aparılacaq. Komissiyanın məlumatında bildirilib ki, Dövlət Sərhəd Xidmətinin Akademiyasına qəbul olmaq arzusunda olan namizədlər iyulun 30-dan avqustun 4-dək tələb olunan sənədlərlə Dövlət Sərhəd Xidməti aparatının inzibati binasına (ünvan: Zərifə Əliyeva küçəsi, 30; tel: (012) 498 01 43) təqdim edə bilərlər.

**S.QARAYEVA**

# 18 525 manat məbləğində "Cek Pot" sahibinə təqdim olundu

Lotereya oyunlarında iri uduş sahiblərinə həsr olunmuş ötən yazıda, həyata yenicə vəsiqə alan "6/40" lotereya oyununda, qısa müddət ərzində ikinci "Cek Pot"un udulmasını qeyd edərək söz vermişdik ki, növbəti yazılarımızda xoşbəxt uduş sahibini dəyərli oxucularımıza təqdim edəcəyik. Budur, "6/40" oyununun 31-ci tirajında 18 525 manat məbləğində "Cek Pot"u udan Lənkəran şəhər sakini Hüseynov Hamlet Rahid oğlu ilə tanış ola bilərik. Yeri gəlmişkən, "Space" telekanalı tamaşaçıları uduşun Hüseynov Hamletə təqdim edilməsinə canlı yayımda şahidlik ediblər. Hamletin 24 yaşı var, subaydır. Yəqin lotereya həvəskarlarının yadındadır ki, cari ilin mart ayında 66 900 manat, may ayının sonunda isə 60 200 manat olmaqla, sözügedən uduş lənkəranlıların udduğu üçüncü "Cek Pot"dur. Hamlet bunu lənkəranlılar arasında lotereya oyunlarının populyarlığı ilə izah etməklə yanaşı, lotereya oyunları haqqında digər mülahizələrini də bizimlə bölüşür. Onun fikrincə, son bir neçə ayda "5/36" və "6/40" oyunlarında dalbadal iri məbləğdə uduşlara, bu oyunlarda "Cek Pot"-ların daha sürətlə artaraq qısa müddətdə kifayət qədər iri məbləğə çevrilməsinə (Hamlet öz uduşunu təzəcə alsa da, "6/40" oyununda "Cek Pot"un məbləği, artıq 16 000 manat həddini keçib) baxmayaraq, onun tanıdığı lotereya həvəskarları arasında "Ailə Sevinci" lotereyası daha populyardır. Biz Hamletə bütün lotereya oyunlarında uğurlar diləyir və ilin uduş rekordunu təzələməyi arzu edirik. "Ailə Sevinci" lotereyasına gəldikdə isə, 127 000 manata qədər yüksəlmiş "Meqa Pot" uduşunun hansı birimizinsə ailəsinə sevinc gətirəcəyi günü gözləyirik. Lotereya həvəskarlarının hər biri bu sevinci yaşamağa layiqdir. Bakı şəhər sakini İsmayılov Elnur Akif oğlu ilin uduş rekordunu təzələməsə də "Ailə Sevinci" lotereyasının 75-ci tirajında Nissan "Sunny" avtomobili udmaqla sevinc payını aldı. Bu lotereyanın 76-ci tirajı da Bakı sakinləri üçün uğurlu oldu. AzTV-nin çoxsaylı tamaşaçı auditoriyası Bakıdan Əbdülovlar ailəsinin yaşadığı sevincin şahidi oldular. Üç ədəd lotereya bileti almaqla gözəl avtomobilə sahib olan, sağlam, əsl azərbaycanlı ailəsinin xanımının, 19 yaşlı nişanlı qızın anasının keçirdiyi hissləri bir anlıq təsəvvür edin. Nissan "Sunny" avtomobilinin açarlarını təhvil alan Əbdülova Həcər Məhəmmədismayıl qızı ilə söhbət edərkən ürəkdən gələn sevinci duymamaq mümkün deyil. Əbdülovlar ailəsinə, inşaallah, övladlarının xeyir işində daha böyük sevinc yaşamağı arzu edirik. Yeri gəlmişkən, "Ailə Sevinci" lotereyasının 76-cı tirajı Naxçıvan MR Babək rayon sakini Məmmədov Razim Xasay oğlunu da 2020 manat uduşla sevindirdi. "Binqo" sevərlər də dünən axşam həyacanlı anlar yaşadılar. Zarafat deyil, bir oyunda 25 000, 55 000, 90 000, 126 000 və 75 000 manat məbləğində beş möhtəşəm uduş öz sahiblərini gözləyir. "Ugur" lotereyası da uduşların iriliyi baxımından digərlərindən geri qalmır. Üç "Cek Pot" oynanılan bu oyunda 81 000 manat çoxumuzun həyatını kökündən dəyişməyə qadir olan bir uduşdur. Quba rayon sakini İskəndərov Bəhram Pirməmməd oglu hesab edir ki, məbləğin böyük-kiçikliyindən asılı olmayaraq, istənilən uduş insanda çox gözəl psixoloji ovqat yaradır. İki övladı, üç nəvəsi olan 58 yaşlı Bəhram İskəndərov "Ugur" lotereyasının 49-cu tirajında 2500 manat udub və səmimiyyətlə bildirir ki, bu uduş ona böyük sevinc bəxş edən qismətdir. "Ugur" lotereyasında sevinən təkcə o deyil. Gədəbəy rayon sakini Əsgərov Füzuli Məhəmmədəli oğlu da "Ugur"un 49-cu tirajında 2020 manat uduşla uğur qazandı.



Yuxarıda sadaladığımız uduş məbləğlərinə əsasən demək olar ki, cari ilin, artıq ilk ayını başa vurduğumuz ikinci yarısında lotereya həvəskarları möhtəşəm anlar yaşayacaqlar. İyul ayı qaliblərinin sevincinə qoşulur, xeyirli olsun deyir və hamınıza yeni- yeni sevinc dolu günlər arzulayırıq.

# Qənirə Paşayeva: "Bu, modern dünyanın ən böyük ayıbı, utancıdır"

**Müsahibimiz millət vəkili, siyasi elmlər üzrə fəlsəfə doktoru Qənirə Paşayevadır.**



***—Qənirə xanım, bu günlərdə Qarabağ hadisələrinə həsr olunmuş daha iki — "İtirilmiş gələcək-Aygün" və "Ruhum qarabağlıdır" filminizin təqdimatı oldu. Bu filmləri hazırlamaqda, ərsəyə gətirməkdə, belə demək mümkünsə, əsl məqsədiniz nədən ibarətdir? Onu da qeyd edək ki, məlum təqdimatlar zamanı bunlara qısaca olaraq, toxunmuşdunuz...***

—Bilirsiniz, bu filmlərin hazırlanmasının, geniş auditoriyaya təqdim edilməsinin ilk və başlıca səbəbi erməni vandalizmini, Azərbaycanın erməni təcavüzünə məruz qalmasını, o cümlədən, Qarabağ həqiqətlərini dünya ictimaiyyətinə daha dolğun şəkildə çatdırmaqdır. Bu gün biz ermənilərlə təkcə hərb, savaş meydanında deyil, həm də ideoloji cəbhədə mübarizə, müharibə aparırıq və bu baxımdan gərəkdir ki, bu informasiya savaşında da haqlı tərəf olduğumuzu sübut edək. Bunun üçün də məhz belə filmlərin hazırlanması və dünya ictimaiyyətinə çatdırılması vacibdir.

Konkret olaraq, "İtirilmiş gələcək-Aygün" filminin üzərinə gələrək onu demək istəyirəm ki, bu filmin əsas, baş qəhrəmanı olan 11yaşlı balamız Aygün Şahmalıyeva ötən ilin iyulunda Tovuz rayonunun Ermənistanla sərhəddə yerləşən Əlibəyli kəndi ərazisindən keçən Tovuz çayına axıdılmış — içərisinə partlayıcı yerləşdirilmiş oyuncağın partlaması nəticəsində qətlə yetirildi. Deyərdim ki, dünyada bu vəhşiliyin, vandalizm aktının analoqu da yoxdur, yəni, oyuncağın içərisinə partlayıcı yerləşdirəsən ki, bunu tapan uşaq həmin oyuncağın partlaması nəticəsində dünyasını dəyişsin, onun qurbanı olsun... Biz də onun — Aygün haqqında bir film hazırladıq. Avrasiya Araşdırmalar İnstitutu İctimai Birliyi olaraq "İtirilmiş gələcək-Aygün" filmini hazırlayıb, ərsəyə gətirdik . Bu filmin hazırlanmasında, onunla bağlı geniş təqdimat mərasiminin keçirilməsində də əsas məqsəd ondan ibarətdir ki, birincisi, indiki gənc nəsil və gələcək nəsillərimiz Aygünü nə unutmalı, nə də unutdurmalıdır. Çünki çox təəssüflər və yazıqlar olsun ki, beynəlxalq ictimaiyyət, beynəlxalq təşkilatlar Aygünün belə bir şəkildə, Ermənistan tərəfindən həyata keçirilən terror aksiyası nəticəsində — mən bunu məhz belə adlandırardım — vəhşicəsinə qətlə yetirilməsinə çox biganə yanaşdı, ona lazımi reaksiyanı vermədi...

***—Demək istəyirsiniz ki, Aygün həm də beynəlxalq ictimaiyyətin və beynəlxalq qurumların bu kimi vandalizm hərəkətlərinə susqunluğunun, biganəliyinin bir növ qurbanı oldu...***

—Tamamilə, doğrudur. Aygün məhz Qarabağ məsələsinin tənzimlənməsi ilə guya məşğul olan beynəlxalq təşkilatların, missiyaçılıq, vasitəçilik funksiyasını öz üzərinə götürən şəxslərin və nəticə etibarı ilə beynəlxalq birliyin, ictimaiyyətin biganəliyinin, laqeydliyinin qurbanı oldu. Aygünə qədər qətlə yetirilmiş azərbaycanlı körpələr, azərbaycanlı uşaqlar var ki, onlar məhz Ermənistan tərəfindən həyata keçirilən dövlət terrorunun, soyqırımların qurbanıdırlar və əgər o uşaqlara görə beynəlxalq ictimaiyyət vaxtında lazımi reaksiyasını versəydi, beynəlxalq təşkilatlar təcavüzkar Ermənistana lazımi təpkini, təzyiqi göstərsəydi və ən başlıcası bu vandalizm aktlarını törədənlərin cəzalandırılmasını tələb edərək buna nail olsaydı, bəlkə o zaman Aygün də bu cür vəhşiliklə qətlə yetirilməzdi.

Bu günün özündə hələ də Aygünün bu cür vəhşicəsinə qətlə yetirilməsinə laqeyd münasibət gələcəyə yeni qurban aygünlərin olmasına yol açan addımlardır. Ona görə bu filmdə əsas məqsəd olaraq o önə çəkilib ki, indiki və gələcək nəsillərimiz özləri ilk növbədə nə Aygünü unutmalı, nə də unutdurmalıdırlar...

***—Bu filmin Azərbaycandan kənarda da yayımlanması nəzərdə tutulurmu?***

—Heç şübhəsiz ki, bu film tək Azərbaycanda yayımlanmayacaq, film həm də bizim xaricdəki diaspor təşkilatlarımıza göndəriləcək ki, oradakı bütün insanlarımız, soydaşlarımız bu kimi hadisələri nə unutsunlar, nə də unutdursunlar. Həmçinin, film sosial şəbəkələrdə, "youtube"-da da geniş şəkildə yayılacaq, amma vacibi budur ki, bu filmin ingilis dili versiyası hazırlanır və bu versiya bütün beynəlxalq ictimaiyyətə, beynəlxalq təşkilatlara bizim xaricdəki səfirliklərimiz vasitəsilə geniş şəkildə yayılacaq. Bir daha təkrar olaraq qeyd etmək istəyirəm, burada əsas məqsəd odur ki, bu kimi erməni cinayətlərini nə unudacağıq, nə də unutduracağıq. Bu cür- insanlığa qarşı həyata keçirilən terror aktlarını nə unudub, nə də unutduracağıq. Eyni zamanda , beynəlxalq ictimaiyyətdən də lazımi reaksiya verməsini, öz mövqeyini açıq, birmənalı şəkildə ortaya qoymasını, bunu törədənlərə qarşı təzyiq artırmasını bir daha tələb edəcəyik və bu çağırışı səsləndirəcəyik ki, modern dünyanın gözü qarşısında körpə, məsum uşaqlar oyuncağa yerləşdirilmiş bomba, partlayıcı ilə qətlə yetirilirsə, bu, artq dünyanın ən böyük ayıbıdır, ən böyük utancıdır. Ən böyük utancıdır ki, körpələrimiz bu cür vəhşiliklə qətlə yetirilirlər. Odur ki, gələcəkdə də belə qurbanlar olmasın deyə, biz bütün beynəlxalq ictimaiyyəti bu kimi məsələlərə öz diqqətini daha da artırmağa çağırırıq...

***—Bəs, sizin şeirləriniz əsasında ssenariləşdirilmiş "Ruhum qarabağlıdır" filmi haqda nə deyərdiniz?***

—Əvvəla, Xocavənd rayon İcra Hakimiyyətinə, icra başçısı Eyvaz Hüseynova şəxsən təşəkkür etmək istərdim ki, onlar belə bir təşəbbüslə, ideya ilə çıxış ediblər. Doğrusu, bu şeirlər silsiləsi mənim duyğularım, hisslərim idi və bu hisslərimi, duyğularımı da insanlarla bölüşmək istəmişdim. Eyni zamanda, elə bilirəm ki, bu duyğular, bu hisslər azərbaycanlıların əksəriyyətinin duyğuları və hissləridir. Yəni, biz Qarabağla, işğal altında olan torpaqlarımızla bağlı o arzuları, o acıları, o ağrıları, o həsrəti birgə yaşayırıq, çəkirik. O cümlədən, içimizdəki o inam, o ümid ki, biz mütləq Dağlıq Qarabağa, digər işğal olunmuş topraqlarımıza qayıdacağıq, elə bilirəm ki, bu, bütün azərbaycanlıların içərisində olan inamdır.

Mən də hamının içərisində olan ümidi, inamı, ağrı-acını, kədəri paylaşmaq, yəni, hamının paylaşdığı duyğuları özüməməxsus şəkildə "facebook" səhifəmdə dilə gətirmişdim. Çox sağ olsunlar, bu duyğuları ki, kiçik şeirlər vasitəsi ilə paylaşmaq istəmişdim, indi onu götürüblər və sənədli — bədii film kimi ssenariləşdiriblər. Buna görə də bu işdə əməyi keçənlərin hər birinə, Xocavənd rayon İcra Hakimiyyətinə, ssenari müəllifi, tanınmış telejurnalist Bəxtiyar Qaracaya,o cümlədən, xocavəndlilərə ilk növbədə minnətdarlığımı bildirmək istəyirəm.

Çünki bu gün Xocavəndin, Dağlıq Qarabağın çox kiçik bir parçası bizim əlimizdədir və xocavəndlilər də Qarabağ müharibəsi dövründə çox mətinliklə vuruşublar, — o torpaqlar sanki insanlarımızın qanı ilə suvarılıb — ermənilərə çox layiqli cavab veriblər. Bu gün də onlar ön cəbhəmizdə çox mərdliklə dayanırlar və o inamla da yaşayırlar ki, torpaqlarımızı işğaldan azad edəcəyik, biz o torpaqlarımıza dönəcəyik. Eyni zamanda, bu insanların belə bir təşəbbüslə, ideya ilə çıxış etməsi və bu filmi hazırlaması məni duyğulandıran bir məsələdir. Ona görə ki, bu, bəlkə də yeganə filmdir ki, onun oyunçuları arasında tanınmış aktyorlar, aktrisalar yoxdur, bu filmdə bütün qəhrəmanlar Qarabağ ağrı-acısını yaşayan və yaşamaqda davam edən qarabağlılar, sadə xocavəndlilərdir. Onlar bu filmin gerçək qəhrəmanları kimi o duyğuları sadəcə, oynamırlar, o duyğuları bütün varlıqları ilə yaşayırlar. Ən əsası da bu filmin qəhrəmanları gənclərdir. Yəni, o gənclər ki, torpaqlarımıza sahiblənmək, Qarabağımıza qayıdacağıq, qayıtmalıyıq fikri ilə yaşayırlar.

Mən inanıram ki, o gün də uzaqda deyil, Ali Baş Komandanımızın rəhbərliyi altında biz tezliklə o torpaqlarımıza, o yurdlarımıza, o evlərinmizə mütləq dönəcəyik. Biz bu günü mütləq və mütləq görəcəyik!

**Kamil HƏMZƏOĞLU**

# Mixail Ratuşnıy: "Ukrayna və Azərbaycan Avropa İttifaqında birgə özlərini daha yaxşı hiss edəcəklər"



"Avropa təkcə geosiyasi məkan demək deyil. Avropa eyni zamanda, həyatın bütün sahələrində dəqiqliklə müəyyən edilmiş oyun qaydaları deməkdir. Mən qəti şəkildə əminəm ki, Ukraynanın yeri məhz Avropa İttifaqındadır. Düşünürəm ki, Azərbaycanın da yeri Avropa İttifaqındadır". Bu barədə bizimlə söhbət zamanı Ukrayna Ümumdünya Koordinasiya Şurasının (UÜKŞ) rəhbəri Mixail Ratuşnıy deyib. O deyib ki, xalqlarımız da artıq yerlərinin məhz Avropa məkanında olduğunu çoxdan müəyyənləşdiriblər: "Həm də ki, Ukrayna və Azərbaycan Avropa İttifaqında birgə özlərini daha yaxşı hiss edəcəklər. Axı kim Ukrayna taxılına və Xəzər neftinə sahibdirsə, o da Avropada təsir gücünə malikdir. Beləliklə, taxıla sahib olan Ukrayna və Xəzər neftinə malik olan Azərbaycan Avropada təsir gücü əldə edəcəklər. Sadəcə olaraq, bəzi səbəblərdən, Ukraynanın və Azərbaycanın Avropa İttifaqına daxil olmaq səyləri xalqımızın iradəsindən asılı olmayaraq, dəyişməli olub. Azərbaycanın və Ukraynanın Avropaya inteqrasiya etməsini istəməyənlər həddən artıq çoxdur". M.Ratuşnıy bildirib ki, bu qüvvələr açıq-aşkar şəkildə KİV-lərdə Ukraynasız və Azərbaycansız keçmiş Sovet İttifaqının bənzəri olan imperiyanın yaradılmasının qeyri-mümkün olduğunu etiraf edirlər: "Bununla belə onu da nəzərə almaq lazımdır ki, bəzi siyasi xadimlər də öz bəyanatlarında onların tarixi missiyalarının imperiyanın yaradılması olduğunu bildirirlər. Buna görə də, Ukrayna və Azərbaycan birgə şəkildə bu məqsədlərə qarşı birgə müqavimət göstərməli və GUAM-ın fəaliyyətini fəallaşdırmaqla məşğul olmalıdırlar. Bu birlik bizim Avropaya inteqrasiyamızı yaxınlaşdıracaq". Ukraynanın gələn il ATƏT-ə sədrlik edəcəyi müddət ərzində Dnestryanı və Dağlıq Qarabağ münaqişələrinin nizamlanması üçün bütün səyləri göstərməsinə dair bu ölkə prezidentinin bəyanatına toxunan Ratuşnıy deyib ki, Ukraynanın istək və imkanlarının olduğunu hesab edir: "Lakin Dnestryanı və Dağlıq Qarabağın daim münaqişəli zonalar kimi qalmasında maraqlı olan qüvvəllər olduqca nüfuzludurlar. Ona görə, Ukrayna bir tərəfdən Dnestryanı və Dağlıq Qarabağdakı münaqişələri həll etmək istəyir, digər tərəfdən isə başa düşür ki, belə bir cəhd Ukraynanın öz ərazi bütövlüyü üçün təhlükə yarada bilər. Bu baxımdan, Ukraynanın Dnestryanı və Dağlıq Qarabağ münaqişələrinin həllinə yardım etmək üçün gücünün və imkanlarının çatacağına inanmaq istəyirəm". O deyib ki Azərbaycan və Ukrayna ikitərəfli münasibətləri inkişaf etdirmək üçün humanitar, mədəni və idman sahəsində əlaqələrin möhkəmləndirilməsinə diqqət yetirməlidir: "Sözsüz ki, buna müəyyən dərəcədə ölkələrimizdə "Eurovision" beynəlxalq mahnı müsabiqəsi və futbol üzrə Avropa çempionatının keçirilməsi imkan yaradır". Ukraynadakı Azərbaycan diasporunun fəaliyyətinə toxunan qonaq bildirib ki, Ukrayna azərbaycanlıları qısa zaman kəsiyində güclü diaspora çevrilməyi bacardılar: "Ukraynada 500 min azərbaycanlı yaşayır və onlar olduqca nüfuzlu diaspor təşkilatında birləşirlər. Mənim rəhbərlik etdiyim təşkilatın Azərbaycan diasporu ilə münasibətləri formal mahiyyət daşısa da, iki birliyin nümayəndələri şəxsi səviyyədə də yaxşı münasibətlərə malikdirlər. Qeyd etmək istəyirəm ki, Azərbaycanın Diasporla İş üzrə Dövlət Komitəsi fəaliyyət dövrü ərzində yadda qalan uğurlara nail olub. Azərbaycan tərəfi diasporların təşkili məsələsinə nisbətən gec başladı, lakin tez bir zamanda onun inkişafına nail oldu və hətta bizim sizdən öyrənəcəylərimiz də var".

**PƏRVANƏ**

# Bakıda "İfadə azadlığına və medianın məsuliyyəti"nə dair beynəlxalq konfrans keçirilib







Bakıda Avropa Qəzetçilər Birliyi (AQB), Avrasiya Beynəlxalq Araşdırmalar İnstitutu İctimai Birliyi (ABAİİ) və Beynəlxalq Avrasiya Mətbuat Fondunun (BAMF) təşkilatçılığı ilə "İfadə azadlığı və medianın məsuliyyəti" mövzusunda beynəlxalq konfrans keçirilib. Konfransın əsas məqsədi qloballaşan dünyada ifadə azadlığının durumu, medianın məsuliyyəti və eyni zamanda mətbuatın inkşafına təsir göstərən siyasi institutların, transmilli korporasiyaların, güc mərkəzlərinin müdaxiləsi nəticəsində yaranan problemlərin müzakirəsi olub.

Konfransın işində KİV rəhbərləri, jurnalistlər və vətəndaş cəmiyyəti nümayəndələri iştirak ediblər. Konfransın gedişində Mətbuat Şurasının sədri Əflatun Amaşov, AQB-nin başqanı cənab Adnan Fişənk, ABAİİ-nin rəhbəri Qənirə Paşayeva və BAMF-ın sədri Umud Rəhimoğlu çıxış edərək söz və ifadə azadlığında medianın məsuliyyəti mövzusunda fikirlərini bildiriblər. Media mənsubları müzakirə edilən məsələ ilə bağlı öz fikir və mülahizələrini söyləyiblər. Konfrans çərçivəsində Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinin diqqətinə çatdırılması sahəsində gördüyü işlərə görə Adnan Fişənkə xüsusi mükafat təqdim edilib. Tədbirdə iştirak edən Beynəlxalq Mətbuat İnstitutunun (BMİ) nümayəndəsi xanım Melisa Meritoviç sentyabr ayında Bakıda dünya ölkələri jurnalistlərinin və aparıcı media qurumları nümayəndələrinin iştirakı nəzərdə tutulan " Bakı Media,Neft-Qaz 2012 " konfransı haqqında məlumat verib.

Sonra Qənirə Paşayevaya və Elçin Mirzəbəyliyə Beynəlxalq Mətbuat İnstitutuna üzv qəbul edilmələri barədə vəsiqələr təqdim olunub.

# MTN daha bir əməliyyat keçirdi

## RABİTƏ VƏ İNFORMASİYA TEXNOLOGİYALARI NAZİRLİYİNƏ KÜLLİ MİQDARDA ZİYAN VURAN ÖZBƏKİSTAN VƏTƏNDAŞI HƏBS OLUNUB

***(Əvvəli 1-ci səh.)***

MTN-in həyata keçirdiyi digər əməliyyat tədbiri nəticəsində qanunvericiliklə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alınmadan və xüsusi razılıq, yəni tələb olunan lisenziyanı almadan qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olan Özbəkistan Respublikasının vətəndaşı İskanderov Pulat İskanderoviç saxlanılıb. Məlum olub ki, Pulat İskanderov və qeyriləri "Bakcell Ltd" MMC-nin mobil operator şəbəkəsində birtərəfli telefon danışıqları təşkil edən avadanlığa xüsusi texniki vasitələrlə qoşularaq icazəsiz beynəlxalq rabitə xidməti yaradıb külli miqdarda pul qazanmaq məqsədilə cinayət əlaqəsinə giriblər. Bundan sonra, adları çəkilən şəxslər xaricdə istehsal olunmuş "GSM" kanalpaylayıcılarını və digər texniki avadanlıqları əldə etmiş və onları Bakı şəhərində müxtəlif ünvanlarda yerləşən mənzillərdə quraşdırıblar. Pulat İskanderov "Bakcell Ltd" MMC-yə məxsus, ayrı-ayrı şəxslərin adına sənədləşdirilmiş 245 ədəd "GSM" mobil telefon nömrəsi alıb, bu nömrələri həmin xüsusi texniki avadanlıqlara daxil etdikdən sonra İnternetə qoşularaq keçmədən icazəsiz birtərəfli beynəlxalq telefon danışıqlarının ölkə rabitə şəbəkəsinə daxil olmasını təşkil edib. Göstərilən ünvanlara baxış keçirilərkən həmin avadanlıqlar işlək və şəbəkəyə qoşulmuş vəziyyətdə aşkar olunub.



Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin beynəlxalq avtomat telefon stansiyasında qeydiyyatdan

Müəyyən edilib ki, qısa müddət ərzində qanunsuz təşkil edilmiş beynəlxalq telefon danışıqları nəticəsində Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinə təxminən 104 min manatdan artıq ziyan vurulub.

Hər iki faktla bağlı Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206.3.2-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən qaçaqmalçılıq), 234.4.1-ci və 234.4.3-cü (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən külli miqdarda narkotik vasitələri əldə etmə, daşıma, saxlama və ya satma), həmçinin 192.2.2-ci (külli miqdarda gəlir əldə etməklə qanunsuz sahibkarlıqla məşğul olma) maddələri ilə cinayət işləri başlanılıb. Adları çəkilən şəxslər təqsirləndirilən şəxs qismində cəlb olunaraq barələrində məhkəmənin qərarları ilə həbs qətimkan tədbiri seçilib.

İstintaq-əməliyyat tədbirləri davam edir.

# Fikrət Sadıqov: "Ermənistan hakimiyyəti seçki şousu ilə öz xalqını aldatmağa çalışır"

"Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesinin intensivləşdiyi bir dövrdə Ermənistan dövləti yeni bir təxribata əl atdı. Bu, Dağlıq Qarabağda keçirilən qondarma "prezident seçkiləri" oldu. Ermənistan bununla növbəti dəfə ciddi siyasi təxribata əl atdı". Belə bir açıqlama ilə politoloq Fikrət Sadıqov çıxış edib. Qeyd edək ki, Qarabağda separatçı rejim iyulun 19-da qondarma "seçkilər" keçirib. "Seçkilər"dən sonra beynəlxalq təşkilatlar, ayrı-ayrı ölkələr bəyanata verərək Dağlıq Qarabağı tanımadıqlarını, bu "seçkilər"i qəbul etmədiklərini və Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiklərini bir daha bəyan eydilər. F.Sadıqov dünya birliyinin bu mövqeyini müsbət dəyərləndirib: "Reallıq odur ki, separatçı qurumun təşkil etdiyi qondarma "seçkiləri" Ermənistanın yaxın tərəfdaşları belə tanımır. Ermənistanın və separatçıların bu cür şou təşkil etməsinin səbəbi öz əhalisinin gözündə yalançı qəhrəman yaratmaqdan başqa bir şey deyil". F. Sadıqovun sözlərinə görə, beynəlxalq aləmdə nüfuzunu itirən Ermənistan siyasi elitası bu yolla erməni əhalisinin gözündə yüksəlməyə çalışır: "Ancaq məsələnin reallığına baxdıqda bu legitimlikdən uzaq bir şeydir. Azərbaycan separatçı qurumun bu təxribatçı addımına görə, danışıqlar prosesini dayandırmayacaq. Yenə də ATƏT-in Minsk qrupu həmsədrləri ilə birlikdə münaqişənin həlli istiqamətindəki fəaliyyətini davam etdirəcək".

Qeyd edək ki, qondarma "seçkiləri" izləmək üçün bir sıra ölkələrin parlament üzvləri Azərbaycanın işğal olunmuş ərazilərində olublar. F. Sadıqov bu məsələyə də toxunub və qeyd edib ki, həmin siyasətçilər dövlətlərin maraqlarını əks etdirmir: "Bunlar sadəcə erməni lobbisinin onlara verdiyi pul əsasında bu cür hərəkətlər edirlər. Dövlətlərin mövqeyi isə artıq açıqlanıb. Təbii ki, işğal olunmuş ərazilərimizə qanunsuz səfər edən bu şəxslər arzuolunmaz şəxslər siyahısına daxil edilir. Digər tərəfdən, ermənilər bu cür hərəkətlərlə, dünya birliyinin Dağlıq Qarabağa dair formalaşmış mövqeyinə hər hansı təsir göstərə bilməyəcəklər". F.Sadıqov deyib ki, bu mövqe indiki halda Azərbaycanı qane etsə də, beynəlxalq birlik işğalçı Ermənistana qarşı sərt təzyiqlər göstərməlidir: "Dünya birliyi Qarabağ münaqişəsinin həllinə çağırışlar edir. Ermənistan isə münaqişənin tənzimlənməsində irəliləyişə nail olmaq üçün hər hansı addım atmır. Ona görə də işğalçıya təzyiqlər edilməsi vacibdir, eyni zamanda bu artıq reallıqdır".

**PƏRVANƏ**

# Əli Əhmədov Missisipi ştatının senat üzvləri ilə görüşüb

Bakıda səfərdə olan ABŞ-ın Missisipi Ştatının Senatının üzvləri Yeni Azərbaycan Partiyasının mərkəzi aparatında olublar.

Senatorlar burada YAP sədrinin müavini-icra katibi, millət vəkili Əli Əhmədovla görüşüblər. Əli Əhmədov Azərbaycanın sosial-iqtisadi inkişafı, beynəlxalq əməkdaşlığı, regionda və dünyada artan nüfuzu, problemləri barədə ətraflı məlumat verib: "Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra 20 il ərzində sürətli inkişaf yolu keçib. Son illər ərzində ölkə iqtisadiyyatında 3 dəfə artım olub, yoxsulluq səviyyəsi 50 faizdən 7 faizə enib, 1 milyondan çox yeni iş yeri açılıb. Azərbaycanın 2020-ci il üçün yeni inkişaf konsepsiyası hazırlanır və bu sənəddə iqtisadiyyatın 2 dəfədən çox artımı, insanların həyat şəraitinin daha da yaxşılaşması və sair məsələlər nəzərdə tutulub. Azərbaycan indi regionda həyata keçirilən layihələrin həm təşəbbüskarı, həm də birbaşa iştirakçısıdır. Terrorizmə qarşı beynəlxalq səviyyədə aparılan mübarizədə də ölkəmiz fəal iştirak edir. Lakin buna baxmayaraq Azərbaycan özü terrordan əziyyət çəkir. Ermənistanın etnik təmizləmə və işğalçılıq siyasəti nəticəsində bir milyondan çox azərbaycanlı doğma torpaqlarından qovulmuş, Azərbaycanın 20 faizi torpaqları işğal olunmuşdur. Rəsmi Bakı bu münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında, dövlətlərin ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdardır".

Ə.Əhmədov demokratik inkişaf yolu tutmuş Azərbaycanın Avropaya inteqrasiya etdiyini, rəsmi Bakının bütün nüfuzlu beynəlxalq təşkilatlar və dövlətlər, o cümlədən Amerika ilə əlaqələrin inkişafına xüsusi diqqət yetirdiyini diqqətə çatdırıb: "İnanırıq ki, amerikalı senatorların Azərbaycana səfəri ikitərəfli əlaqələrimizin daha da genişlənməsinə və möhkəmlənməsinə xidmət edəcək. Bu səfər eyni zamanda Amerika ictimaiyyətinə Azərbaycan ilə bağlı daha çox məlumat çatdırılmasında mühüm rol oynayacaq".

Missisipi Ştatının senatoru Hilman Terome Frazier onlara göstərilən qonaqpərvərliyə və ətraflı məlumata görə minnətdarlıq edib. Qonaq Azərbaycana ikinci səfərlərinin olduğunu bildirərərək ilk dəfə Bakıda 1999-cu ildə olduqlarını vurğulayıb: "Ötən illər ərzində Azərbaycan həqiqətən də sürətli inkişaf yolu keçib. Paytaxt Bakı əsaslı şəkildə dəyişib, gözəlləşib. Biz bunu çox yüksək qiymətləndiririk. Azərbaycan Respublikası ilə Missisipi Ştatı arasında çox gözəl münasibətlər və əməkdaşlıq əlaqələri vardır. Biz Ştatın senatorları olaraq bu əlaqələrin daha da genişlənməsində və inkişaf etməsində maraqlıyıq. İnanırıq ki, bu cür səfərlər əməkdaşlığımızın genişlənməsinə töhfə verəcək".

Sonra görüşdə qarşılıqlı səfərlərin əhəmiyyəti, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində beynəlxalq ictimaiyyətin rolu, iqtisadi sahədə əməkdaşlıq və sair məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Görüşdə YAP icra katibinin müavini, millət vəkili Siyavuş Novruzov, YAP-ın beynəlxalq əlaqələr şöbəsinin müdiri, millət vəkili Asəf Hacıyev və başqaları da iştirak edib.

**S.MÜRVƏTQIZI**

# *Yakuba Bamba:* "Avropada birinci mərhələni keçmək uğur deyil"

**"Karvan"ın və "Xəzər Lənkəran"ın sabiq futbolçusu Yakuba Bamba Qol.Az-a müsahibə verib.**



***— Yakuba, necəsən, işlərin necə gedir?***

— Hər şey qaydasındadır, yaşayırıq özümüz üçün.

***— Azərbaycanı xatırlayırsan?***

— Əlbəttə. Heç Azərbaycanı unutmaq olar? Orada çox gözəl günlərim keçib.

***— Yəqin ki, "Karvan"ın karyeranda xüsusi yeri olub?***

— Şübhəsiz. "Karvan" mənim Azərbaycandakı ilk klubum oldu. Həmin vaxt super komandamız var idi. Baxmayaraq ki, yeni yaranmış komanda idi, amma iki il ard-arda ilk "üçlüy"ə düşməyi bacardıq. Bu mənada, "Karvan"ın karyeramda xüsusi yeri var.

***— Sonra "Xəzər Lənkəran"a keçdin. Bu komanda yaddaşında necə qalıb?***

— "Xəzər Lənkəran" da yaxşı komanda kimi yaddaşımda qalıb. Güclü maliyyəsi, heyəti və azarkeşləri var idi. Heyf ki, zədələr tam gücümlə oynamağa imkan vermədi. Ancaq istənilən halda bu komandanı da xoş mənada xatırlayıram.

***— Yəqin, xəbərin oldu, "Xəzər Lənkəran" Avropa Liqasında "Lex"ə uduzaraq, mübarizəni dayandırdı...***

— Bəli, xəbərim oldu və buna görə çox üzüldüm. Ancaq dünyanın sonu deyil. "Lex"lə oyunda təcrübəsizlik mərhələ keçməyə mane oldu. Avropa səviyyəli oyunlarda ələ düşən imkanlardan maksimum istifadə etmək lazımdır. Artıq irəli baxmaq lazımdır. Mən inanıram ki, Yunis Hüseynov "Xəzər Lənkəran"a böyük uğurlar qazandıracaq. Onunla "Karvan"da işləmişəm və gücünə bələdəm.

***— "Xəzər Lənkəran"la bərabər "İnter" də mübarizəni dayandırdı. Ancaq onlar daha zəif "Asteras"a uduzdular...***

— Bilirsiniz, Azərbaycan futboluna yaxşı sərmayə qoyulur. Bunun qarşılığını vermək lazımdır. Birinci mərhələ keçmək uğur sayılmamalıdır. Çünki biz o mərhələni "Karvan"la 2006-cı ildə keçmişik, yəni, 6 il qabaq. Avropa Liqasının qrupunda oynamaq istəyən komanda "Asteras"ı keçməli idi.

***— Azərbaycandakı yaxınlarınla əlaqə saxlayırsan?***

— Bacardıqca dostlarımla internet vasitəsilə əlaqə saxlayıram, hal-əhval tuturam. Burdan da bütün dostlarıma, azərbaycanlı azarkeşlərə salam göndərirəm.

**Anar XANLAROV**

## "Bakı"dan Kamran Ağayev açıqlaması

"Kamran yaxşı qapıçıdır, millinin üzvüdür. Belə bir qapıçının bizim klubda olmasını istərdik".

Bu sözləri Qol.Az-a açıqlamasında "Bakı"nın baş meneceri Zeynal Məmmədov deyib. "Xəzər Lənkəran"dan ayrılan Kamran Ağayevin paytaxt klubuna keçidinə dair yayılan xəbərlərə münasibət bildirən Zeynalov bunun mümkün olmayacağını bildirib: "Biz artıq bir qapıçı transfer etmişik. Ona görə də Kamranın "Bakı"ya keçidi alınmayacaq. Bu qapıçıya əvvəl marağımız var idi. Ancaq sonradan yeni qapıçı aldıq. Əgər xərc çəkib qapıçı almışıqsa, yenisinə ehtiyac yoxdur".

Qeyd edək ki, Kamran Ağayev bir neçə gün öncə "Xəzər Lənkəran" klubu tərəfindən transferə çıxarılıb.

## Daha bir ulduz futbolçu Amerika yolunda



"Real" (Madrid) klubunun futbolçusu Kaka karyerasını Amerika Liqasında davam etdirə bilər.

Braziliyalı futbolçu "Nyu York Red Bulls" klubunun maraq dairəsinə düşüb.

Daha öncə Tyeri Anri və Rafael Markiz kimi dünya ulduzlarını heyətinə qatan Amerika təmsilçisi Kakanı da transfer etməyi planlaşdırır. Lakin "Real"ın Kakanın keçidi üçün 25 milyon avro tələb etməsi "Nyu York Red Bulls"un işini çətinə salır. Kakanın isə Amerikaya getmək istədiyi bildirilir.

Qeyd edək ki, Kaka ilə "Nyu York Red Bulls"la yanaşı, "Milan" klubu da yaxından maraqlanır.

## Bahadır Nəsimovdan təzə xəbər

"Hazırda müalicəmi vətənimdə davam etdirirəm. İstəyirəm ki, tezliklə zədəmi sağaldıb komandanın sıralarına qayıdım. Sevinirəm ki, "Zestafoni" ilə oyunlarda uğurla çıxış etdik".

Bu sözləri "Neftçi"nin özbəkistanlı hücumçusu Bahadır Nəsimov klubun rəsmi saytına bildirib.

"Bu mövsüm daha güclü kollektivimiz formalaşıb. İnanıram ki, avrokuboklarda yolumuzu davam etdirəcəyik" — deyə o vurğulayıb.

## *Mansini:* "Çempionlar Liqasını qazana bilmərik"



"Mançester Siti" klubunun baş məşqçisi Roberto Mansini yenidən maraqlı açıqlamaları ilə diqqət çəkib.

"The Mirror"a danışan italiyalı mütəxəssis bu mövsüm Çempionlar Liqasında final oynaya biləcəklərini bildirib:

"Çempionlar Liqasının qalibi olmaq gücündə deyilik. Çünki heyətimiz buna imkan verməyəcək. Ancaq ÇL-də yarımfinal və ya finala qədər irəliləyə bilərik. Ancaq çemionluq çətindir. Bu mövsüm əsas hədəfimiz İngiltərə Premyer Liqasında çempionluq titulumuzu qorumaqdır.

"Çelsi"nin ötən mövsüm ÇL-də qazandığı çempionluğu haqq etmədiyini deyə bilmərəm. Lakin "Çelsi"dən də yaxşı komandalar var idi. Bəzən kubok qazanırsız və bunu nəyə görə əldə etdiyinizi anlamazsınız. "Çelsi"nin çempionluğu da buna bənzəyir".

## "İsrailə yalnız qələbə üçün gedirik"

"Azərbaycan futbolu üçün tarixi nəticənin astanasındayıq. Tarix yazmaq üçün əlimizdə gözəl şans var. Futbolçularımız da bunun məsuliyyətini yaxşı anlayırlar. Komandamızın düşərgəsindəki ab-havaya da söz ola bilməz". Bu sözləri "Neftçi" PFK-nın komanda direktoru Güloğlan Cabbarov "Hapoel"lə oyun öncəsi klubun rəsmi saytına bildirib. "Düzdür, İsrail təmsilçilərinə qarşı komandalarımızın oyunu həmişə çətin olub. Buna baxmayaraq, "Neftçi" "Hapoel" Kiryat-Şmona ilə oyuna tam hazırdır. Əminliklə deyirəm ki, "Neftçi" İsrailə yalnız qələbə qazanmaq üçün gedir. Hər iki oyunda qalib gəlib, tarix yazacağımıza inanıram" — deyə o qeyd edib.

## Xorvatiya millisinin futbolçusu "Real"da



Xorvatiya millisi və "Tottenhem" klubunun yarımmüdafiəçisi Luka Modriçin Londondan ayrılacağı dəqiqləşib.

Madridin "Real" klubu 26 yaşlı futbolçunun transferini reallaşdırıb.

London təmsilçisi "Real"ın 36 milyon avroluq təklifini qəbul edib. "Tottenhem"in baş məşqçisi Andre Villas Boaş Modriçi komandada saxlamaq istəsə də, futbolçunun "Real"a keçmək istəyi buna mane olub. Bununla da, Modriç yeni mövsümdən "Real"ın şərəfini qoruyacaq.

Qeyd edək ki, 2008-ci ildən "Tottenhem"in şərəfini qoruyan Modriç keçirdiyi 127 oyunda 13 qola imza atıb.

## "Mourinyo uzun müddət "Real"a rəhbərlik edəcək"

"Real" (Madrid) klubunun qapıçısı İker Kasilyas komandanın baş məşqçisi Joze Mourinyo haqda xoş sözlər deyib.

Kasilyas Mourinyonun "Real"a uzun müddət baş məşqçilik edəcəyinə inandığını bildirib:

"Mourinyonun adı daha çox qalmaqallarda hallanırdı. Ancaq onunla tanış olduqdan sonra mətbuatda yazılanların heç də həqiqətə uyğun olmadığını gördüm. O, öz işini sevən və uzaqgörən bir insandır.

Mourinyo hər oyunçusundan maksimum güc tələb edir. Klub rəhbərliyi onu komandaya gətirməkdə düzgün addım atdı. Ümid edirəm ki, Mourinyo uzun müddət "Real"a rəhbərlik edəcək".

Qeyd edək ki, 2010-cu ildən "Real"ı çalışdıran Mourinyo bu komanda ilə 1 dəfə İspaniya kuboku, 1 dəfə isə La Liqada çempionluq sevinci yaşayıb.

Sahib və Ramil Səfərovlar sənətşünaslıq üzrə fəlsəfə doktoru Reyhan Həbibullayevaya həyat yoldaşı

**Şahid Həbibullayevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Nizaməddin Şəmsizadə, Vaqif Arzumanlı, Oqtay Rza və Asif Rüstəmli sənətşünaslıq üzrə fəlsəfə doktoru Reyhan Həbibullayevaya həyat yoldaşı

**Şahid Həbibullayevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Məmmədli Şirin İlqar oğluna Nizami RPŞ-dən verilmiş şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

# Fədakarlıq mücəssəməsi

Elə bil qurub-yaqatmaq, mübarizə aparmaq üçün doğulmuşdu. Bu qarqaşalı, narahat dünyada rahatlıq tapmazdı. Həmişə haraya isə tələsirdi... Astagəl, tənbəl, pinti insanları heç xoşlamazdı. Yalançılar və yarımçıq iş görənlər gözünün düşməni idi. Bəzən qar-qat ağır, icrası inanılmaz görünən layihələrin, həlli müşkül olan işlərin altına çiynini təkbaşına verərdi. Nikbin əhvali-ruhiyyə, gələcəyə inam, əzmkarlıq qazandığı uğurların əsasını təşkil edirdi. Ona Şahid Həbibullah — deyə müraciət edərdim. Gülümsəyib cavab verərdi ki, Həbibullah — Allahın dostu, sevimlisi deməkdir.

Dostları, yaxınları ilə anadan olmasının 60 illik yubileyinə hazırlaşırdı... Bəlkə də ömründə ilk dəfə bizim üçün bu böyük və əziz tədbiri yarımçıq qoyub sevdiyi və iman gətirdiyi Tanrı dərgahına pənah apardı, İlahi ucalığa qovuşdu...

Şahid Həbibullah 1952-ci il noyabr ayının 14-də Azərbaycanın əsrarəngiz dilbər guşəsi olan Oğuz rayonunun Muxas kəndində zəhmətkeşliyi, xeyirxahlığı, mərdliyi və halallığı ilə tanınan bir ailədə dünyaya göz açıb. Uşaqlıq illəri Baş Daşağıl çayının sahillərində, Orta əsr tarixi abidəsi olan Muxas qülləsinin ətrafında, Qafqaz sıra dağlarının ətəklərində keçib. Xarakterinin və dünyagörüşünün formalaşmasında ilk müəllimi təbiət özü olub. Kənd orta məktəbini bitirdikdən sonra ali təhsil almaq üçün ixtisas seçməkdə çətinlik çəkməyib. İstehsalatdan ayrılmamaq şərtilə Azərbaycan Politexnik İnstitutunun mexanika fakültəsinə daxil olub. Böyük zəhməti, təşəbbüskarlığı və təşkilatçılığı sayəsində adi fəhləlikdən, çilingərlikdən Şəhərlərarası Sərnişindaşıma Avtokombinatının baş direktoru vəzifəsinədək yüksəlib. Erməni separatçılarının təhriki ilə Qarabağ hadisələri başladıqdan sonra Naxçıvanla kəsilmiş birbaşa yerüstü əlaqələrin İran ərazisindən keçməklə bərpa olunmasında, əhalinin avtobusla gediş-gəlişinin intensiv təminatında fəal iştirak edib. Ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından və ölkənin ağır günlərində xalqa müraciətindən sonra Şahid Həbibullah baş direktor vəzifəsini səngərlə əvəzləyərək bir qrup məsləkdaşı ilə könüllü olaraq Qarabağa — ön cəbhəyə yollanıb. Ərazilərimizin bütövlüyü uğrunda gedən müharibə dövründə analoji hala, oxşar hadisəyə təəssüf ki, təsadüf olunmur. Dəfələrlə ölümlə üz-üzə gəlsə də geri çəkilməmiş, qızğın döyüş əməliyyatlarında düşmənlərə qarşı ciddi müqavimət göstərmişdir. O, alay komandirinin şəxsi heyətlə iş üzrə müavini olaraq döyüşlərdə ön sırada vuruşmaqla yanaşı, uğurlu hərbi əməliyyatlara rəhbərlik etmiş, hərbi hissə komandanlığı tərəfindən dəfələrlə mükafatlandırılmışdır. Ona 181 saylı hərbi hissənin komandiri, polkovnik C.Əliyev tərəfindən verilmiş "Xidməti xasiyyətnamə"də yazılır: "07.01.1994-cü ildə Ş.M.Həbibullayevin rəhbərliyi və iştirakı ilə hərbi qrup strateji əhəmiyyətli Bəytəpə yüksəkliyinin alınmasını uğurla həyata keçirmişdir. Bundan sonra 07.01.1994-cü ildən 27.01.1994-cü ilə kimi alay komandirinin müavini, kapitan Həbibullayevin rəhbərliyi və iştirakı ilə hərbi bölmə erməni yaraqlıları tərəfindən zəbt edilmiş torpaqların azad olunmasına başlamış və 40 km-dən çox zəbt olunmuş ərazi azad edilmişdir. Döyüşlərdə rəqib tərəfin 1 tankı vurulmuş və canlı qüvvəsi məhv edilmişdir.

28.01.1994-cü ildə düşmən üç saatlıq artilleriya hazırlığından sonra saat 16.00-da tank bölüyünün və piyada qoşun dəstələrinin köməyi ilə strateji mövqeləri geri qaytarmaq üçün əks-hücuma keçmişdir.

Kapitan Ş.M.Həbibullayevin rəhbərliyi və iştirakı ilə düşmənin tank bölüyünün növbəti hücumunun qarşısı alınmışdır. Qanlı vuruşmada düşmən tərəfinin 4 tankı vurulmuş və 40 nəfərdən çox canlı qüvvəsi məhv edilmişdir.

1994-cü ilin mart ayında kapitan Həbibullayevin sayıqlığı və öz xidməti borcuna vicdanla yanaşması nəticəsində erməni kəşfiyyatçısı aşkar olunmuş və zərərsizləşdirilmişdir."

Kapitan Şahid Həbibullahın xidməti xasiyyətnaməsinə istinadən seçilmiş bir neçə cümləlik bu sitatın oyatdığı qürur hissi, Qarabağ müharibəsinin gedişatında dönüş xarakterli bu hərbi uğura imza atması, igid, cəsur döyüşçümüzün diqqətçəkən qəhrəmanlığı örnəyə və təqdirəlayiqdir. Təsadüfi deyildir ki, Azərbaycan Respublikasının Prezidenti H.Ə.Əliyevin fərmanı ilə döyüş əməliyyatlarına bacarıqla rəhbərlik etdiyinə və şəxsi şücaət göstərdiyinə görə kapitan Şahid Həbibullah 9 oktyabr 1994-cü ildə "Azərbaycan bayrağı" ordeni ilə təltif olunmuşdur.

İkinci qrup Qarabağ əlili kimi ordudan tərxis edilən Ş.Həbibullah hərbi xidmətdən əvvəlki vəzifəsinə bərpa olunsa da əsas meylini misgərlik incilərinin kolleksiyasını yaratmağa salmış, bu yolda əzablara, məşəqqətlərə qatlaşmışdır. Onun əlvan metalların təkrar emalının ilkin mərhələsindən xilas edərək ikinci həyat verdiyi tətbiqi incəsənət nümunələri bu gün xalqımızın əvəzsiz milli sərvətidir.



Ş.Həbibullahın kolleksiyasına daxil olan maddi mədəniyyət nümunələrinin böyük əksəriyyəti Bakı, Naxçıvan, Gəncə, Şəki, Lahıc, Dərbənd, Təbriz, Ərdəbil sənət məktəblərinə mənsubdur. Son on beş ildə toplanılan və bərpa edilən eksponatların sayı beş mindən ziyadədir. Onlardan 1000 ədəddən çoxu XVIII-XIX əsrlərdə istehsal edilmiş 141 firmaya aid müxtəlif çeşidli samovarlardır.

Bu sənət incilərinin bərpayaqədərki şəkilləri nəcib və şərəfli işin çətinliyi və əhəmiyyəti barədə aydın təsəvvür yaratmaq üçün ziyarətçilərə köməklik göstərir.

Misgərlik tarixən kişi peşəsi olub. Bu sənətin ustaları gözəl və yüksək zövqlü xanımların məişət əşyalarına olan ehtiyaclarını bədii estetika baxımından da məharətlə yerinə yetiriblər. Şahid Həbibullahın kolleksiyasındakı eksponatlar sayına, sənətkarlıq səviyyəsinə və üslub əlvanlığına görə Azərbaycanın heç bir muzeyində cəm halda təsadüf olunmayan maddi mədəniyyət nümunələrindən ibarətdir. Şərq nəqqaşlıq məktəbinin ən kamil xüsusiyyətlərini özündə əks etdirən, döymə, oyma və qabartma üsulu ilə məişət əşyalarından məcməyilər, sinilər, nimçələr, badyalar, satıllar, sərpuşlar, sərniclər, süzgəclər, tavalar, qazanlar, dolçalar, camlar və digər nümunələr üzərindəki nəbati, islimi və həndəsi naxışlarla bəzədilmiş süjetli təsvirlər kompleksi, kufi və nəstəliq xəttlər şəbəkəsi arxaikləşmiş yaşamı ilə insanı heyrətə gətirir.

Kolleksiyaya daxil olan məişət qabları içərisində 12 əşyadan ibarət, iç-içə yığılan mis qazan servisi unikallığı və orijinallığı ilə heyrətləndirici təsirə malikdir. Aş dəmləmək üçün hazırlanmış servisin üst səthində yazılmışdı: "Bu qazanı Seyyid Əbdül Hüseyn 1206-cı ilin rəbbi-ül əvvəl ayında öz övladı üçün vəqf etmişdi."

Zərif naxışları ilə göz oxşayan, hündürlüyü 63 sm., tutumu 20 litr olan şərbət qabı hicri 1294-cü ildə hazırlanıb. Üzərində on dörd məsumun mübarək adları yazılıb, ortada isə "Bütün dünyanın yaradıcısı — Allah" sözləri həkk edilib. Şərbət qabının səthi müxtəlif nəbati naxışlarla, mifik təsvirlərlə zəngindir. Hacı Qasım adlı şəxsin sifarişi ilə misgər Zeynalabdinin hazırladığı bu qab aşurə günlərində şərbət ehsanı vermək üçün nəzərdə tutulmuşdur.

Şəxsi kolleksiyanı bəzəyən misgərlik inciləri təkcə ornamentlərin zənginliyi və mürəkkəbliyi ilə deyil, həm də sənət əsərlərinin üzərində döyülmüş zooloji təsvirlərin, aforizmlərin, adların tarixi əhəmiyyəti baxımından da qiymətlidir. Mis üzərindəki mətnlərdə dualar, öygülər, yalvarışlar xüsusi yer tutur. Bir sərpuş üzərindəki yazı dua mahiyyəti daşıyır: "İlahi, bu dünyanı abad et, bütün insanları günahdan qoru. Dünyada ədəb-ərkan olduğuna görə insanları yaxşı məclislərə hidayət et!"

Üzərində hicri tarixi ilə "1254" yazılmış başqa bir sərpuşda isə bu sözlər həkk edilmişdir: "Qoy illər boyu bu əsər bizim hər hissəciyimiz kül olub hər tərəfə səpələnənədək qalsın. Məqsədimiz özümüzdən sonra iz qoymaqdır."

Şahid Həbibullahın kolleksiyasına daxil olan sənət möcüzələrinin üzərindəki orta əsrlərə aid yazılar, rəsmlər, naxışlar mədəniyyətimizin, incəsənətimizin ən qədim qaynaqlarından və zəngin ənənələrindən soraq verir. Bu zəngin və dəyərli kolleksiyasının beynəlxalq aləmə çıxışı ilə bağlı ilk təşəbbüs şübhəsiz ki, Heydər Əliyev Fondunun prezidenti, millət vəkili Mehriban xanım Əliyevaya məxsusdur. Fondun təşkilatçılığı ilə 14-21 oktyabr 2006-cı ildə Parisdə, YUNESKO qərargahında keçirilən "Azərbaycan sivilizasiyasının və mədəniyyətinin kəsişmə nöqtəsi" adlı tədbirdə Ş.Həbibullahın şəxsi kolleksiyasından seçmə eksponatlar bir guşədə ayrıca sərgiləndi və tamaşaçıların böyük marağını qazandı. Bu mədəniyyət hadisəsindən sonra şəxsi kolleksiya beynəlxalq tədbirlərin diqqət mərkəzində dayandı. Bir-birinin ardınca Ş.Həbibullaha məxsus eksponatlar xarici ölkələrdə — Mərakeşdə İSESKO iqamətgahında (2008, mart), Tacikistanda (2008, noyabr), Misirdə (2010, yanvar), Daşkənddə (2010, noyabr), Londonda (2010, noyabr), Berlində (2011, yanvar), Parisdə (2011, fevral), Vaşinqtonda (2011, mart), Parisdə (2011, mart), Moskvada (2011, may və iyun), Sen-Tropedə (Fransa, 2011, iyul), Berlində (2011, sentyabr), Vyanada (2011, noyabr), Romada (2011, dekabr) keçirilən sərgiləri böyük maraq və heyrətlə qarşılanmışdır. Misgərlik incilərinin Bakıda — Şirvanşahlar Saray Kompleksində (2008, mart), Qala Dövlət Tarix-Etnoqrafiya qoruğunda (2008, oktyabr), "Gülüstan" Sarayında (2008, dekabr), İçərişəhərdə (2009, mart), "Gülüstan" Sarayında (2010, may, 2011, aprel) nümayiş etdirilməsi seyrçilərin yaddaşında silinməz izlər buraxmışdır.

Ehtiramla vurğulanmalıdır ki, xarici ölkələrdə və respublikamızda təşkil olunan sərgilər Heydər Əliyev Fondunun, Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə həyata keçirilmişdir. Təqdirəlayiq hadisələrdən biri odur ki, Ş.Həbibullaya məxsus kolleksiyanı vətənimizdə layiqincə nümayiş etdirmək üçün Qala qəsəbəsində "Əntiq Əşyalar muzeyi" tikilərək ötən ilin sentyabr ayından ziyarətçilərin istifadəsinə verilmişdir. Muzeyin açılış mərasimində Respublika Prezidenti cənab İlham Əliyev və xanımı, Milli Məclisin deputatı, Mehriban xanım Əliyeva şəxsən iştirak etmiş, muzeyin rəy kitabına səmimi düşüncələrini yazmışlar.

Bu gün "Qala Əntiq Əşyalar muzeyi" ziyarətçilərin ən çox baş çəkdiyi məkanlardan biridir. Qələbəliyə baxmayaraq yaradıcısını itirmiş muzey əlləri köksündə çarpazlaşmış çocuğa bənzəyirdi. Təsəlli o idi ki, Şahid Həbibullah özündən sonra mədəniyyət tariximizdə layiqli iz qoyub...

Dekorativ tətbiqi sənət incilərimizin bənzərsiz sevdalısı, mahir toplayıcısı və bərpaçısı, sözün əsl mənasında fədakarlıq mücəssəməsi Şahid Həbibullah çoxşaxəli və zəngin xalq sənətimizin qədim nümunələrini, maddi-mədəniyyətimizin unikal tarixi sərvətlərini bir araya gətirərək dünyanın ən məşhur kolleksiyaçıları sırasına daxil olan yeganə azərbaycanlı idi...

**Asif RÜSTƏMLİ**
**asif_rustemli@yahoo.com**

## ELAN

Ukrayna Respublikası Elm, Təhsil, Mədəniyyət və Turizm nazirliyi, Heydər Əliyev adına Ukrayna-Azərbaycan Təhsil, Elm, Mədəniyyət, İdman Mərkəzi, Beynəlxalq Təhsil və Elm Mərkəzi (Bakı).

Ukrayna, Rusiya dövlət universitetlərində, Vrotslav (Polşa) Dövlət universitetində təhsil almağa dəvət edir (bakalavr, mütəxəssis, magistr, aspirant).

1. T. Şevçenko adına Milli dövlət universiteti ("Milli" statusu universitetlərə ölkə prezidentinin fərmanı ilə verilir).
2. Ukrayna Milli Texniki universiteti.
3. Ukrayna Milli Aviasiya universiteti.
4. Ukrayna Milli Linqvistika universiteti.
5. Ukrayna Milli Memarlıq və İnşaat universiteti.
6. Kiyev Milli Tibb universiteti (Boqomolts adına).
7. Kiyev Dövlət Nəqliyyat universiteti.
8. Kiyev Dövlət Ticarət-İqtisadiyyat universiteti.
9. Bütün Ukrayna vilayət mərkəzlərinin dövlət universitetləri (Odessa, Donetsk, Xarkov, Poltava, Simferopol, Jitomir, Vinnitsa, Lvov, Çerkassı, Dnepropetrovsk və s.).

1. Moskva Memarlıq və İnşaat universiteti.
2. Plexanov adına İqtisadiyyat universiteti.
3. Moskva Tibb universiteti.
4. Moskva Mühəndis-fizika universiteti.
5. Dağıstan Dövlət universiteti.
6. Rusiya Prezidenti yanında dövlət qulluqçuları akademiyası.

1. Vrotslav (Polşa) Dövlət universiteti (universitet təhsili bitirənlərə Polşa, Fransa (ikili) diplomunu və İngiltərə Krallığı Logistika (iqtisadiyyat) və Nəqliyyat institutunun sertifikatını verir).

**İxtisaslar:**

Bütün humanitar, Tibb, İqtisadiyyat, Texniki və başqa ixtisaslar təklif olunur. İxtisaslarla bağlı suallara Xəzər universiteti, Karyera Mərkəzində cavab almaq olar.

Respublikamızdan xaricdə alınan təhsil Beynəlxalq Təhsil və Elm Mərkəzinin (Bakı) universitetlərlə bağladığı Müqavilələr əsasında aparılır. Bu Müqavilələrə əsasən Mərkəzin vasitəçiliyi ilə universitetlərə qəbul olunanlar təhsil müddətində Mərkəzin diqqət mərkəzində saxlanılacaq.

**Ünvan və əlaqə telefonları:**

**1. 8-ci km. qəsəbəsi, Məhsəti küçəsi 11, Xəzər universiteti, Karyera mərkəzi,**

**Sənədlərin qəbulu — Əlövsət müəllim, telefon: 050-321-31-69.**

**2. Tel: (012) 429-66-54, 050-398-32-68, 055-466-26-68.**

**3. Bakıxanov qəsəbəsi, Mehmandarov küçəsi, 23, "Modern" tədris mərkəzi, tel:(012) 511-93-74**

**Adil İsgəndərov adına Mədəniyyət sarayı, tel: (012) 429-86-25 (Bədii rəhbər)**

**Q?zet 1992-ci il noyabrın 17-d?n çıxır.**

**Baş redaktor:** Rəşad Məcid
**Redaktor:** Yaşar ?liyev
**Baş redaktor müavinləri:** Yusif Rzayev, Seyfəddin Hüseynli
**Redaktor müavinləri:** Aydın Bağırov, Mirhacib Məcid, İsgəndər Həsənov

Qəzet bazar və bazar ertəsindən başqa hər gün çıxır
**Ünvan:** AZ1033, Bakı, Ş.Mustafayev küçəsi-27/121
Telefon: 566-67-98, 566-93-40
Faks: 566-25-20
**İnternet ünvanı: www.525.az**
**E-mail: qezet525@mail.ru**
Qəzet "Azərbaycan" nəşriyyatının mətbəəsində çap olunub.
Təsisçi: "525" şirkəti
İndeks: 0046, tiraj: 2250, sifariş:2588
"TURAN", "TREND", AzərTAc, "AssA-İradə", APA v? "OLAYLAR"ın informasiyalarından istifad? olunub.

Dərc olunan reklamların mətninə görə redaksiya məsuliyyət daşımır.
® işarəsi altında dərc olunan materiallar reklam xarakterlidir.